# Füzuli: yüksəliş və tərəqqi yolunda

**1994-cü ilin yanvar ayında Füzuli rayonunda uğurlu əməliyyat keçirilmişdir, 22 kənd işğalçılardan azad edilmişdir. Bu, böyük tarixi qələbə idi. Aprel döyüşləri növbəti tarixi qələbədir. Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu, bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz bu gün hələ də işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Son günlər cəbhə xəttində Ermənistan silahlı qüvvələrinin təxribatları intensivləşib. Demək olar ki, hər gün düşmən işğal etdiyi ərazilərdən mövqelərimizi, cəbhəboyu kəndləri aramsız atəşə tutur. Milli Ordumuzun hissələri düşmənin diversiya təxribatının qarşısını yüksək peşəkarlıqla alaraq Ermənistan ordusuna sarsıdıcı zərbələr endirir.**

Ön də, arxa da cəbhə olan Füzuli rayonunda ötüb keçən illər ərzində işğaldan, erməni təcavüzündən zərər çəkmiş ərazilərdə müharibə ağrılarına məlhəm qoyulur. Füzulililər inam, əzmkarlıq, qətiyyət nümayiş etdirərək dövlət qayğısına əməli işləri ilə cavab veriblər. Burada məcburi köçkünlər üçün onlarla yeni qəsəbələr salınıb, insanlara rahat şərait yaradılıb.

Ötən ilin aprel ayında düşmənin təxribat diversiyasına layiqincə cavab verən milli ordumuzun hissələri uzun illərdən bəri işğal altında qalan Lələtəpəni azad edərək minlərlə hektar əraziyə nəzarəti ələ keçirib. Bu tarixi qələbə cəbhə xəttində yaşayan insanların daha çox qüruruna, iftixarına, inamına və sevincinə səbəb olub.

Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsi 25 ildən çoxdur ki, davam edir. Öz təbii mənzərəsi, gözəlliyi ilə seçilən, qədim tarixi və mədəniyyəti olan Füzuli rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin əsası da məhz 1992-ci ilə təsadüf edir. Müharibənin boz və murdar sifəti həmin vaxt daha çox özünü büruzə verib, doğma yurd yerlərimiz, kəndlərimiz erməni işğalına məruz qalıb. Füzuli rayonunun Yuxarı Divanlılar kəndi dekabrın 7-də (1991-ci il) erməni-rus ordusu tərəfindən işğal edilib. Hərbi texnika ilə hücuma keçən basqınçılar kəndin bütün evlərini yandırıblar. 12 nəfər kənd sakini isə əsir götürülüb. Başqa bir fakta diqqət yetirək. Fevralın 21-dən 22-nə keçən gecə (1992) ermənilər rusların zirehli texnikası və piyada dəstələrinin köməyi ilə Füzuli rayonunun Yuxarı Veysəlli kəndini gecə saat 3-də mühasirəyə alaraq kəndin 100-dən artıq evi yandırılıb. 1000 nəfərdən artıq adam evsiz-eşiksiz qalaraq kəndi tərk edib. Döyüş zamanı kənd sakinlərindən və onun müdafiəçilərindən 5 nəfər həlak olub, 20 nəfər yaralanıb, 16 yaşlı oğlan uşağı isə itkin düşüb. Adamlar öz doğma ocaqlarını, evlərini tərk ediblər. 1993-cü il avqustun 23-də isə Ermənistan silahlı qüvvələri Füzuli şəhərini və ətraf kəndləri işğal etdilər.

Bu barədə ətraflı məlumat verən, ötən müharibənin ağrılarını kədər və təəssüflə söyləyən, ən ağır günlərdə həmyerliləri ilə çiyin-çiyinə dayanmış **rayon icra hakimiyyətinin başçısı Əli Alıyev** deyir:

- Xalqımızın haqlı tələbi və təkidi ilə hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyev insanları düşündürən və narahat edən bütün suallara cavab tapdı. Hamının yaxşı yadındadır ki, belə ağır və təzadlı bir vəziyyətdə bütün baxışlar yalnız bir insana - ümummilli liderimiz Heydər Əliyevə dikilmişdi. Hamı bu dahi insandan imdad gözləyirdi. Ulu öndər xalqımızı bütün bəlalardan xilas etdi, onun fədakar xidməti sayəsində erməni silahlı qüvvələrinin hücumlarının qarşısı alındı. İnsanların qəlbində inam və ümid baş qaldırdı. 1993-cü il dekabr ayının əvvəllərində Heydər Əliyevin bölgəyə səfəri, döyüşçülərlə və əhali ilə görüşləri heç də təsadüfi xarakter daşımırdı. 1994-cü ilin yanvar ayında Milli Ordumuz əks-hücuma keçərək düşmənə ağır və sarsıdıcı zərbələr vurdu, 22 yaşayış məntəqəsi işğaldan azad edildi. İşğaldan azad edilmiş və zərər çəkmiş ərazilərdə vəziyyət olduqca ağır və dəhşətli idi. Buna baxmayaraq, xalqımızın dahi oğlu Füzuli rayonunun dirçəlişi üçün çox böyük diqqət və qayğı göstərdi. Neft Fondundan ilk vəsaiti məcburi köçkünlər üçün qəsəbələrin salınmasına ayıran ulu öndər Heydər Əliyev həmin insanların qəlbində özünə əbədi bir abidə qurub.

Qeyd edək ki, rayonun ərazisi 1382 kv.km, əhalisi 109 min nəfərdən çoxdur. İşğaldan əvvəl rayonda bir şəhər, bir qəsəbə, 80 kənd olub. Füzuli şəhəri və ətraf yaşayış məntəqələri 1993-cü il avqustun 23-də işğala məruz qalıb. 1994-cü ilin yanvar ayında rayonun 22 yaşayış məntəqəsi, 50 min hektara yaxın ərazisi işğaldan azad edilib. Hazırda Füzuli rayonunun işğaldan azad olunmuş ərazisində 65 min nəfərdən artıq əhali yaşayır. 55 min nəfər füzulili isə məcburi köçkün kimi Bakı, Sumqayıt, Şirvan şəhərlərində, Beyləqan, İmişli, Sabirabad, Saatlı və respublikanın 50-dən çox şəhər və rayonlarında məskunlaşıb.

Hazırda rayonda 39 yaşayış məntəqəsi var. Bunlardan 16 qəsəbə Dövlət Neft Fondunun vəsaiti hesabına tikilib. İşğaldan sonra rayonda infrastrukturun fəaliyyəti bərpa olunmuş, 80 ümumtəhsil müəssisəsi və 2 texniki peşə məktəbi, 25 uşaq bağçası, 33 kitabxana, 6 klub, 3 muzey, 12 musiqi məktəbi, 8 xəstəxana, 18 həkim məntəqəsi, 2 texniki peşə məktəbi, 25 uşaq bağçası, 33 kitabxana, 6 klub, 5 musiqi məktəbi, 1 park, 8 xəstəxana, 18 həkim məntəqəsi, 13 feldşer-mama məntəqəsi, 2 muzey işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərir.

İşğaldan azad olunmuş ərazilərdə 21 məktəb binası bərpa olunmuş, 15 məktəb binası tikilib. Respublikanın bütün bölgələrində olduğu kimi Füzuli rayonunda Heydər Əliyev Fondunun, fondun prezidenti Mehriban xanım Əliyevanın qayğı və diqqətini əhali daim hiss edir. Təkcə son 4 ildə Fondun Füzuli rayonunda həyata keçirdiyi layihələrə diqqət etsək bunu bir daha aydın görmüş olarıq. Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü ilə Horadiz şəhərində 240 şagird yeri olan ikimərtəbəli ən müasir avadanlıq və dərs ləvazimatları ilə təchiz olunmuş məktəb binası tikilərək istifadəyə verilib.

Heydər Əliyev Fondunun Füzuli rayonuna köməyi başqa sahələrdə də özünü göstərir. Azərbaycan uşaqlarına diqqət və qayğını fəaliyyətinin əsas istiqamətlərindən biri kimi müəyyən edən Mehriban xanım Əliyeva füzulili körpələri də yaddan çıxarmayıb. 2014-cü ildə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Horadiz şəhərində 100 çarpayılıq, 2015-ci ildə Bala Bəhmənli kəndində 60 çarpayılıq ikimərtəbəli uşaq bağçası-körpələr evləri tikilərək istifadəyə verilib. Bağçalarda uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hər cür şərait yaradılıb. Bunlar Heydər Əliyev Fondunun son 4 ildə cəhbə bölgəsində yerləşən Füzuli rayonunda həyata keçirdiyi iri layihələrdir. Fond bu illər ərzində işğaldan azad olunmuş ərazilərdə onlarla layihələr həyata keçirib, minlərlə füzulili məcburi köçkünü sevindirib.

İşğal dövrü dağıdılmış və yandırılmış 4 mindən çox ev bərpa olunaraq əhalinin istifadəsinə verilib. Horadiz işğal dövrü yandırılmış və dağıdılmış 5 küçə yenidən bərpa olunaraq istifadəyə verilib, şəhərdə geniş yaşıllıq zolaqları salınıb, həmişəyaşıl ağaclar əkilib, park və xiyabanlar yaradılıb. Erməni işğalçıları tərəfindən dağıdılmış Horadiz bu gün yaşıllıqlar diyarına çevrilib. Rayon ərazisində 20000-dən çox çinar, Türkiyə və İtaliyadan gətirilmiş 3500 leylandra, 10000 Eldar şamı, 25000 dekorativ kol, ümumilikdə 100 minə yaxın müxtəlif növ ağac və dekorativ kol əkilib. Ağac əkilən ərazilərdə təmizlik işləri görülüb, ağacların suvarılması, yaşıllıqlara lazımi səviyyədə qulluq göstərilməsi təmin olunub.

Ölkə başçısının Sərəncamı ilə 25 min nəfər əhalinin yaşadığı 8 məntəqəni birləşdirən 31,7 kilometrlik Əhmədbəyli-Alxanlı-Zobucuq, həmçinin Bala Bəhmənli-Araz Dilağarda-Araz Zərgər avtomobil yolları yenidən qurulub. Ölkə başçısının Sərəncamına uyğun olaraq rayon ərazisində 60 km-ə yaxın yolların bərpası işləri başa çatdırılıb. Hazırda 1-ci və 11-ci Qayıdış qəsəbələrini birləşdirən 23 kmdən artıq olan yolun tikintisi sürətlə davam etdirilir.

Hazırda rayonumuzun həm iqtisadiyyatı, həm kənd təsərrüfatı, həm də xidmət sahələri öz inkişaf dövrünü yaşayır. Dövlətimizin başçısı cənab İlham Əliyevin Füzuli rayonuna səfəri, burada bir sıra obyektlərin açılışında iştirak etməsi, füzulililərlə səmimi və yaddaqalan görüş keçirməsi hamımızın qəlbində dərin iz buraxıb. Dövlət başçısı məcburi köçkünlərin yaşadıqları ərazilərə həmişə sevinc gətirib.

Respublika Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi xəttə sadiq olan füzulililər həm iqtisadiyyatı möhkəmləndirir, həyat şəraitlərini yaxşılaşdırır, həm də fəal həyat mövqeyi tutmaqla ölkənin və rayonun ictimai-siyasi həyatında daha yaxından iştirak edirlər.

Ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasına baxmayaraq, bu gün Füzuli rayonu bütövlükdə regionun inkişaf mərkəzi kimi tanınır. “Regionların sosial-iqtisadi inkişafı” Dövlət Proqramı çərçivəsində rayonda genişmiqyaslı quruculuq işləri həyata keçirilir. Dövlət başçısının xüsusi diqqət və qayğısı, rayon rəhbərliyinin gərgin əməyi və Füzuli camaatının zəhmətsevərliyi bu işdə xüsusi rol oynayır.

Füzulidə böyük tikintilərin və quruculuq işlərinin həyata keçirilməsi üçün yeni layihələr hazırlanıb. Bu layihə əsasında rayonda qeyri-adi tikinti və yenidənqurma işləri həyata keçirilib. İlk növbədə Horadiz şəhərinin yenidən qurulması başa çatdırılıb. Belə ki, həmin layihəyə əsasən şəhərin kanalizasiya, içməli su, istilik sistemi, elektrik təsərrüfatı, küçələri, daxili yolları tam bərpa edilib. Bununla yanaşı, Horadizdə işğal dövründə yandırılmış iki uşaq bağçasının, səkkizillik məktəbin, kompüterləşdirilmiş mərkəzi kitabxananın tikintisi və bərpası başa çatdırılıb. 2 nömrəli orta məktəb əsaslı bərpa olunub. Ulu öndər Heydər Əliyevin adını daşıyan yeni park gözəlliyi və müasirliyi ilə diqqəti daha çox cəlb edir və füzulilərin ulu öndərə sonsuz ehtiram və məhəbbətinin rəmzi kimi tanınır. Mübaliğəsiz demək olar ki, parkın bölgədə analoqu yoxdur.

Rayon ərazisində meliorasiya və irriqasiya işlərinin həyata keçirilməsi davam etdirilib. Əkin sahələrinin suvarılması üçün suvarma kanalları və arxları təmizlənib stansiyalar vaxtlıvaxtında təmir edildiyindən suvarma dövründə elə bir ciddi problemlər yaranmayıb.

Rayon iqtisadiyyatının başlıca sahələrindən olan kənd təsərrüfatının inkişaf etdirilməsi Dövlət Proqramının əsas istiqamətlərindən biridir. Bununla əlaqədar olaraq taxıl, şəkər çuğunduru, pambıq, barama bostan-tərəvəz, meyvə, qarğıdalı, heyvandarlıq məhsulları istehsalı və emalının artırılması diqqət mərkəzində saxlanılır.

Bu il rayonda yüz min tondan çox taxıl istehsal olunub. Bu, bütövlükdə rayonun tarixində ən yüksək nəticə olub. Həmin nəticənin qazanılmasında respublika hökumətinin əvəzsiz yardımı və diqqəti böyük əhəmiyyət kəsb edib.

Rayon üzrə 24 ton barama istehsal olunub ki, bu da ölkədə ən yaxşı göstəricilərdən hesab olunur. Pambıq tarlalarında becərmə işləri davam etdirilir və pambıqçılıqda da bol məhsul gözlənilir.

Füzulililər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətini və qəti mövqeyini ürəkdən bəyənir və yekdilliklə müdafiə edirlər. Xalqın iradəsindən kənar heç bir qərar qəbul edilməyəcəyini dəfələrlə bəyan etmiş dövlət başçısı demişdir: **“Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaqdır. Məsələ yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır və Azərbaycan bu mövqedən bir addım da geri çəkilməyəcəkdir”.** Biz öz yurdumuza, doğulub boya-başa çatdığımız yerlərə qayıtmaq istəyirik. Bir milyondan çox məcburi köçkünün ən müqəddəs arzusu və istəyi budur. Beynəlxalq təşkilatlar və dünya birliyi bu işə biganə qalmamalıdır.

Rayonda kiminlə həmsöhbət olduqsa, hamının mövqeyi birmənalı oldu. Torpaqlarımız nəyin bahasına olursa-olsun işğalçılardan azad olunacaqdır. Dövlətimiz öz gücünü və iqtisadi qüdrətini günbəgün artırır. Ordu quruculuğu uğurla davam etdirilir. İndi Azərbaycanın müasir silahlara malik güclü, çevik və peşəkar ordusu vardır. Xalqla ordunun birliyi möhkəm xarakter daşıyır. Dövlətimizin başçısı cənab İlham Əliyevin siyasəti ümid verir ki, işğalçılar torpaqlarımızdan çıxarılacaqdır.

Rayonda həyata keçirilən tədbirlər, sosial-iqtisadi inkişaf, qəsəbələrin və kəndlərin görkəminin yaxşılığa doğru dəyişməsi, insanların fəallığının artması diqqəti daha çox cəlb edir. Əməldə də, ruhda da, niyyətdə də yaxşı mənada köklü dəyişiklik baş verir. İndi Horadiz bölgədə analoqu olmayan Bayraq meydanı yaradılıb. Burada on mindən çox ağac əkilib, gözəl və füsunkar bir istirahət guşəsi yaradılıb. Bu yüksəklikdən baxanda istər Arazqırağı obalar, istərsə də rayonun işğal altındakı torpaqlar ovuc içi kimi görünür. Üçrəngli bayrağımız indi həm də Azərbaycan ordusu tərəfindən cəmi 40 dəqiqəyə Ermənistanın işğalından azad edilmiş Lələtəpədə də qürurla dalğalanır. Aprel qələbəsi insanların inam və ümidlərinə yeni bir ruh gətirib, onlar ürəkdən inanırlar ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğal altındakı bütün torpaqlarımız mənfur düşməndən azad ediləcək.

**Salman ALIOĞLU,**
**“Respublika”.**